# Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanovanın müəllimlərin sentyabr konfransında çıxışı

**Hörmətli qonaqlar!**

Əziz konfrans iştirakçıları, xanımlar və cənablar!

Bu gün dövlət qayğısı ilə əhatə olunmuş Azərbaycan təhsilinin uğurlarının gündən -günə artmasının, inkişaf etməsinin və dünya təhsilinə inteqrasiyasının təməlində ümummilli liderimiz Heydər Əliyev tərəfindən müyyən edilmiş siyasi kurs və bu kursun möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi durur. Ölkə başçısının dəfələrlə səsləndirdiyi "Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir" - fikri təhsilin dövlət siyasətinin mərkəzi subyekti olduğunu bir daha təsdiq edir.

Ölkəmizin hər yerində olduğu kimi, Qəbələ rayonunda da təhsil sistemi inkişaf yolundadır. Artıq neçə illərdir ki, təhsilin hüquqi bazası yaradılmış, məzmununda və strukturunda müasir tələblərə uyğun dəyişikliklərin aparılması istiqamətində səmərəli işlər həyata keçirilmişdir.

Bu gün keyfiyyətli və davamlı təhsil ictimaiyyəti və cəmiyyəti düşündürən ən aktual məsələrdəndir. Bunu öz fəaliyyətində rəhbər tutan rayonun təhsil işçiləri 2017-2018-ci dərs ilini uğurla başa vurmuşlar.

Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması, onların cəmiyyətin aparıcı qüvvəsi kimi yetişdirilməsi təhsilin ali məqsədini təşkil edir. Bu istiqamətdə rayonumuzun təhsil ocaqlarında görülmüş işlər, qazanılmış müsbət ənənələr inkişaf etdirilməli, davamlı olaraq məktəblərdə ulu öndərin azərbaycançılıq məfkurəsinin geniş təbliğ edilməsinə və öyrənilməsinə diqqət daha da artırılmalı, gənc nəsil, uşaqlar və yeniyetmələr bilik və elmlə yanaşı milli, mənəvi, əxlaqi dəyərlərimizə sevgi ruhunda tərbiyə olunmalıdır.

**Hörmətli konfrans iştirakçıları!**



Müstəqil dövlət olaraq ölkəmizin bilikli, savadlı, dərin düşüncəli, vətənpərvər, hadisələrə çevik müdaxilə etmək bacarığına malik, mədəni, ölkəni layiqli təmsil edən milli və ümumbəşəri dəyərləri daşıyan kadr potensialına böyük ehtiyacı var. Bu ehtiyacın təmin edilməsində təhsil işçilərimizin üzərinə xüsusi bir vəzifə düşür ki, onlar da öz əməkləri ilə bu şərəfli vəzifənin öhdəsindən layiqincə gəlməyə çalışırlar. 2017-2018-ci tədris ilində rayonumuzun təhsil sahəsində qazandığı nailiyyətlər yuxarıda söylədiklərimizin bir daha təsdiqidir. Müəllimlərimiz bundan sonra da daha məsuliyyətlə çalışmalı, keyfiyyətli təhsili özləri üçün prioritet məsələ hesab etməli, dövlətimiz tərəfindən təhsilin qarşısına qoyulan vəzifələri daha layiqli şəkildə yeinə yetirməli, tədqiqatçılığı, yaradıcılığı özlərininin aparıcı xüsusiyyəti hesab etməlidirlər.

**Hörmətli konfrans iştirakçıları, əziz müəllimlər!**

Mən qarşıdan gələn yeni dərs ili və "Bilik Günü" münasibəti ilə sizi bir daha təbrik edir, konfransın işinə uğurlar arzulayıram.

Təhsilin inkişafına göstərdiyi hədsiz qayğı və diqqətə görə Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevə, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya bütün qəbələlilər adından dərin minnətdarlığımı bildirirəm.

**Diqqətinizə görə sağ olun!**

# Qəbələ Rayon Təhsil Şöbəsinin müdiri Arifə Bayramovanın müəllimlərin ənənəvi sentyabr konfransında məruzəsi

(Əvvəli 3-cü səhifədə).

edilmişdir.

Qəbələ-Oğuz rayon məktəbləri arasında pedaqoji əməkdaşlıq yaratmaq məqsədilə təhsil şöbələrinin rəhbərləri, əməkdaşları, həmçinin qabaqcıl məktəblərin direktorlarının iştirakı ilə dəyirmi masa keçirilmiş, əməkdaşlıq üçün tədbirlər planı hazırlanmış, hər rayondan pedaqoji əməkdaşlıq üçün 5 qabaqcıl məktəb müəyyənləşdirilmişdir.

1. Qəbələ şəhər 1 nömrəli tam orta məktəbi - Oğuz şəhəri 1 nömrəli tam orta məktəbi
2. Qəbələ şəhər 3 nömrəli tam orta məktəbi - Oğuz şəhəri 3 nömrəli məktəb-liseyi
3. Qəbələ rayonu Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbi - Oğuz rayonunun Xaçmaz kənd tam orta məktəbi
4. Qəbələ rayonunun Nohurqışlaq kənd tam orta məktəbi - Oğuz rayonunun Yaqublu kənd tam orta məktəbi
5. Qəbələ rayonunun Tüntül kənd tam orta məktəbi - Oğuz rayonunun Qumlaq kənd tam orta məktəbi

Pedaqoji əməkdaşlıq çərçivəsində fənn kurikulumlarının tətbiqi sahəsində diskussiyalar və müzakirələr aparılmış, qabaqcıl müəllimlərin nümunəvi ustad dərsləri, habelə müasir dərsə verilən tələblərlə bağlı təqdimatlar nümayiş etdirilmişdir.

Şagirdlər arasında sağlam rəqabətə əsaslanan bilik və idman yarışları, müsabiqələri, intellektual oyunları, şeir, hekayə, musiqi axşamları keçirilmiş, sağlam həyat tərzinin, vətənpərvərlik duyğularının, həmrəylik, dostluq, milli-mənəvi dəyərlərə sədaqət ideyalarının təşviq və təbliğinə həsr olunmuş tədbirlər təşkil olunmuşdur.

Ustad dərslərinin təşkili, təqdimatlar müəllimlərin böyük marağına səbəb olmuş, şagirdlər arasında keçirilən tədbirlər onlar arasında dostluq, əməkdaşlıq, həmrəylik hisslərini daha da inkişaf etdirmişdir. Odur ki, Qəbələ-Oğuz rayonları arasında gələcəkdə pedaqoji əməkdaşlığın coğrafiyasını daha da genişləndirmək nəzərdə tutulmuşdur.

**Hörmətli konfrans iştirakçıları.**

Ümumtəhsil məktəblərində təlim keyfiyyətinin yüksək olmasını təsdiq edən amillərdən biri və əsası məzunlarımızın respublikanın ali və orta ixtisas məktəblərinə qəbul olunma səviyyəsi təşkil edir. Son illər abituriyentlər qəbul imtahanlarında iki dəfə iştirak edirlər.Bu da məzunların daha yüksək nəticə göstərmələrinə zəmin yaradır. Rayonumuzun abituriyentləri son illər davamlı olaraq qəbulun nəticələrinə görə respublikanın qabaqcıl regionları sırasına daxil olmuşlar. Neçə illərdir ki, məzunlarımız bu ənənəni qoruyub saxlaya bilmişdir.

2017-2018-ci dərs ilində rayon məktəblərini bitirən 1164 nəfərdən 814 nəfəri ali məktəblərə sənəd vermiş, onlardan 508 nəfəri tələbə adını qazanmış, 50 nəfəri isə 600-dən çox bal toplamışdır.

Gəlin konfrans iştirakçıları adından 2018-ci ildə qəbul imtahanlarında yüksək bal toplayan, həmçinin bu il tələbə adını qazanan bütün məzunlarımızı, onların valideynlərini, bu sahədə əməyi keçən bütün insanları səmimi qəlbdən təbrik edək, gənclərimizə tələbəlik illərində də ölkəmizin gələcəyi naminə böyük təhsil uğurları arzulayaq.

Məzunları yüksək bal toplayaraq ali məktəblərə qəbul olunan məktəblər sırasında şəhər 2, 3, 4, 5, Vəndam qəsəbə 1, 2 nömrəli, Hacıallı, Mirzəbəyli, Həmzəli, Bunud, Nohurqışlaq, Tüntül, Mıxlıqovaq, Xırxatala, Yemişanlı, Dizaxlı kənd tam orta məktəblərinin adlarını iftixarla çəkmək olar.

Tədris ili ərzində bütün ümumtəhsil müəssisələrində milli-mənəvi, azərbaycançılıq ideologiyası ruhunda dəyirmi masalar, müxtəlif nominasiyalı inşa müsabiqələri, oxu günləri keçirilmiş, gənclərin hərtərəfli formalaşması istiqamətində zərərli vərdişlərə, dini radikalizmə qarşı sağlam həyat tərzini təbliğ edən tədbirlər təşkil olunmuşdur.

Dövlətçiliyimizi təbliğ edən tədbirlər içərisində Tüntül kənd tam orta məktəbində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş tədbiri qeyd etmək istəyirəm. Məktəbin yuxarı sinif şagirdləri kəndin mərkəzi küçələrində yürüş etdilər. Əllərində ulu öndər Heydər Əliyevin, ölkə prezidenti cənab İlham Əliyevin portretləri, dövlət bayraqları olan məktəblilər Azərbaycan haqqında şüarlarla nizamlı şəkildə irəliləditər, daha sonra məktəbdə tədbirin bədii hissəsi keçirildi.

İl ərzində Azərbaycan elminin, ədəbiyyatının, dövlətçiliyinin inkişafinda böyük xidmətləri olan şəxsiyyətlərin yubileyləri keçirilmiş, torpaq uğrunda həlak olmuş vətən övladlarının xatirə gecələri təşkil olunmuşdur.

Şagirdlərin Heydər Əliyev Mərkəzinə, tarix-diyarşünaslıq muzeyinə, rayon ərazisində yerləşən tarixi abidələrə ziyarətləri təşkil olunmuş, gənclər və idman idarəsinin təşkilatçılığı ilə birlikdə silsilə tədbirlər keçirilmişdir.

Ümumilikdə təhsil şöbəsi tədris ili ərzində Qəbələ Rayon UADM-nin, Qızıl Aypara Cəmiyyətinin Qəbələ rayon bölməsinin, hüquq-mühafizə orqanlarının, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ Rayon Şöbəsinin, rayon mərkəzi xəstəxanasının, FHN-nin Şimal-Qərb Regional Mərkəzinin, «ASAN xidmət» mərkəzinin və digər idarə və təşkilatların əməkdaşları ilə birlikdə müxtəlif səpkili tədbirlər keçirmişdir.

Tədris ili ərzində noyabr və mart aylarında məktəblilərimiz "Ölkəmizi tanıyaq" maarifləndirici turaksiyasında iştirak etmişlər.

Keçirilən tədbirlər arasında multikulturalizm və tolerantlıq ruhunda tədbirlər xüsusi yer tutur.

Azsaylı xalqların dilinin, dininin, adət-ənənələrinin qorunub saxlanması həmişə diqqət mərkəzində olmuşdur.

Rayonun 3 məktəbində şagirdlərin ana dili olan udi dili, 6 məktəbində isə ləzgi dili tədris olunur.

Artıq yeni 2018-2019-cu tədris ilinin astanasındayıq. Bütün məktəblərdə 15 sentyabr "Bilik günü"-nə hazırlıq gedir.

**Hörmətli konfrans iştirakçıları!**

Yeni dərs ilinə, eyni zamanda qışa hazırlıq istiqamətində rayon məktəblərində xeyli iş görülmüşdür. Təhsil Nazirliyinin 4 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzi tərəfindən təhsil müəssisələrinin yanacağa olan tələbatı müəyyən edilmiş, odunla qızdırılan məktəblərin tələbatı dəqiqləşdirilmiş, odun tədarükünə başlanılmışdır.

İstilik sistemi ilə qızdırılan təhsil müəssisələrində təmir işləri aparılmış, nasaz vəziyyətdə olan avadanlıqlar təmir olunmuşdur.

Məktəblərin dərsliklə təminatında, eləcə də məktəb kitabxanalarının fondunun zənginləşdirilməsi istiqamətində xeyli işlər görülmüşdür.

Məktəblərə 87 adda 65874 ədəd dərslik, 27 adda 3214 ədəd müəllimlər üçün vəsait verilmiş, onlar bölgü əsasında təhsil müəssisələrinə çatdırılmışdır.

Məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi və yenilənməsi istiqamətində xeyli işlər görülmüşdür. Laza kəndində 80 yerlik modul tipli yeni məktəb binası tikilmiş, Zərgərli ibtidai məktəbi üçün 56 yerlik modul tipli yeni məktəb binasının tikintisi yaxın günlərdə başa çatacaqdır. Vəndam qəsəbə 2 nömrəli tam orta məktəbi üçün yaxın günlərdə 380 yerlik yeni məktəb binasının tikintisinə, Qaradeyndə 80 yerlik, Şəfilidə 20 yerlik modul tipli məktəbin quraşdırılmasına başlanılacaq. Bum qəsəbə, Zarağan kənd 1 nömrəli, Məmmədağalı kənd tam orta məktəblərinin dam örtükləri dəyişdirilmişdir.

**Hörmətli konfrans iştirakçıları!**

Qəbələ Rayon Təhsil Şöbəsi Azərbaycan Respublikası Təhsil Nazirliyini, Qəbələ Rayon İcra Hakimiyyətini, Təhsil Nazirliyinin 4 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzini əmin edir ki, rayonumuzun bütün təhsil işçiləri yeni tədris ilində ümumi təhsil sistemində keyfiyyət göstəricilərinin davamlı surətdə yaxşılaşdırılması, təhsilalanların milli ideologiyamız olan azərbaycançılıq məfkurəsi əsasında tərbiyə edilməsi istiqamətində "Ümumi təhsil sahəsində 2018-2019 cu dərs ilinin prioritet fəaliyyət istiqamətləri barədə" Təhsil Nazirliyinin 14 avqust 2018 ci il tarixli F-550 nömrəli əmrinin müddəalarını əldə rəhbər tutaraq əzmlə çalışacaqlar.

**Diqqətinizə görə sağ olun!**